*"Biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, bu, ilk, tamamilə sərbəst, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 12 noyabr 2014-cü il № 86 (1903) Qiyməti 25 qəpik


## Müstəqil dövlətçiliyimizin tarixində mühüm sənəd

### Azərbaycanın ilk Konstitusiyası ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanıb

***1995-ci ildə Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə idi. Əsas Qanunumuzun yaradıcısı, dahi rəhbərimiz Heydər Əliyev qeyd edirdi ki, dövlətimizin mühüm siyasi sənədi olan Konstitusiyanın qəbul edilməsi böyük əhəmiyyət kəsb edən tarixi bir hadisədir. "Biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, bu, ilk, tamamilə sərbəst, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır".***



Azərbaycan dövlətinin ilk Konstitusiyasının qəbul olunması milli dövlətçiliyimizin inkişafında və möhkəmlənməsində mühüm mərhələ oldu, hüquqi dövlət quruculuğunda, cəmiyyətimizin bütün sahələrində demokratik proseslərə güclü təkan verdi. Təsadüfi deyil ki, ümumxalq səsverməsinə çıxarılmış Konstitusiya layihəsi çox böyük səs çoxluğu ilə qəbul edildi. Elə bu amilin özü də gənc, müstəqil respublikada xalqla dövlət arasında möhkəm, monolit birliyin mövcud olduğunu sübuta yetirdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "... Xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış Konstitusiya müasir dünyanın sivil dəyərləri və qanun yaradıcılığı təcrübəsinə, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə, milli və ümumbəşəri prinsiplərə söykənərək demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu üçün möhkəm təməl yaratmışdır".

Həyatımızın Əsas Qanununu fəsil-fəsil, maddə-maddə öyrəndikcə bizə aydın olur ki, Konstitusiyamızın kifayət qədər demokratik ruha malik olması ölkəmizdə milli dövlət quruculuğu prosesini istiqamətləndirən və bu sahədə həyata keçirilən islahatlara təminat verən əsas amillərdəndir. Ümummilli liderimizin bilavasitə rəhbərliyi və təşkilatçılığı ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmış müddəalar müstəqil ölkəmizin müasir bir dövlət olaraq dünyanın siyasi aləmində özünə layiqli yer tutmasına gətirib çıxarmışdır.

Konstitusiyamızın müvafiq maddələri ordu quruculuğuna, Vətənimizin müdafiəsinin təmin edilməsinə həsr olunub. "Vətəndaşların əsas vəzifələri" bölməsində göstərilir ki, Vətənin, doğma yurdun müdafiəsində dayanmaq, onu işğalçılardan qorumaq hər bir ölkə vətəndaşının müqəddəs borcudur. 76-cı maddədə deyilir: "Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər".

Silahlı Qüvvələrimizin hərbi hissə və birləşmələrində Konstitusiyanın təbliğ olunmasına cavabdehlik daşıyan zabitlərimiz şəxsi heyətə hər bir əsgərin hərbi xidmət keçməsinin onun Əsas Qanunla nəzərdə tutulmuş vətəndaşlıq vəzifəsi olduğunu izah etməlidirlər.

Dövlətçiliyin formalaşmasında mühüm amillərdən olan hakimiyyət bölgüsü prinsipləri də Azərbaycan Respublikasının Konstitusiyasında çox dəqiqliklə öz əksini tapıb. Əsas Qanuna görə, respublikamızda icra hakimiyyəti Prezidentə, qanunvericilik hüququ parlamentə, məhkəmə hakimiyyəti isə məhkəmələrə aiddir və bu fəaliyyət bölgüsü səmərəli idarəetməni təmin etməyə əsas verir.

Konstitusiyanın "Dövlətin əsasları" fəslinin 9-cu maddəsində aşağıdakı prinsiplər öz əksini tapıb:

I. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır.

II. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münasibətlərin həlli üsulu kimi müharibəni rədd edir.

III. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır.

Bu maddənin mahiyyəti ondan ibarətdir ki, xalqımız yalnız özünü hərbi təcavüzdən qorumaq üçün ordu yaradıb. Azərbaycan Silahlı Qüvvələri işğalçı, qəsbkar ordu deyil. Ordu quruculuğunu inkişaf etdirməkdə dövlətimizin əsas məqsədi yalnız sülhü, təhlükəsizliyi və əmin-amanlığı bərpa etməkdir. Ölkəmizin ərazi bütövlüyü qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıb və torpaqlarımızın 20 faizi işğal olunub, bir milyon yurddaşımız doğma ev-eşiyindən didərgin salınıb. Buna görə də Azərbaycan haqlı olaraq hərbi potensialını artırmağa və öz ordusunu gücləndirməyə önəm verir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə dövlətimizin rəsmi mövqeyini bəyan edərək bildirib ki, işğalçı Ermənistan beynəlxalq hüquqla tənzimlənən qanuni ərazilərimizi öz xoşuna geri qaytarmazsa, onda ölkəmiz hərbi qüdrətini artırmağa məcbur olacaqdır.

Silahlı Qüvvələrimizin şəxsi heyətinin əsas vəzifələrindən biri də Konstitusiyamızın prinsiplərini mükəmməl öyrənməkdir. Bu məqsədlə hərbi hissələrdə keçirilən ictimai-siyasi hazırlıq məşğələlərində Əsas Qanunumuz maddə-maddə əsgərlərə aşılanır, onlara qanuna hörmət və əməl etmələri tövsiyə edilir. Hər bir əsgərimiz Konstitusiyamızı dərindən öyrənməli, onun mahiyyətini və qanunların məsuliyyətini başa düşməlidir. Bu isə orduda hərbi intizamın daha da möhkəmlənməsinə və döyüş tapşırıqlarının yerinə yetirilməsində məsuliyyət hissinin artırılmasına zəmin yaradır.

**"Azərbaycan Ordusu"**

## Tarixi zərurətdən yaranmış Konstitusiya

***Yetmiş il xalqları əsarətdə saxlayan keçmiş sovet ittifaqı süquta uğradıqdan sonra ölkəmiz müstəqillik əldə etdi. Müstəqilliyimiz bərpa olunduqdan sonra yeni Konstitusiyanın qəbuluna da tarixi zərurət yarandı. Təbiidir ki, müstəqil dövlətin yeni Konstitusiyası yaranmalı idi. Azərbaycanın yeni Konstitusiyasının hazırlanması üçün hələ 1991-ci il fevralın 9-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 74 nəfərdən ibarət komissiya yaradılsa da, bu istiqamətdə faktiki olaraq heç bir iş görülməmişdi. Dövlətçiliyə qarşı yönəlmiş çevriliş cəhdlərinin qarşısı alındıqdan sonra, 1995-ci ilin iyul ayında Milli Məclisin iclasında ümummilli liderimiz Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan Dövlət Komissiyası yaradıldı.***

Yeni yaradılmış komissiyanın iclasında iştirak edən ulu öndərimiz Heydər Əliyev demişdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsipləri əsasında uzun müddət yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

Ümummilli liderin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyyənləşdirdi. Həmçinin insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxardı, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan etdi.

Müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbulu xalq tərəfindən çox böyük coşqu ilə qarşılandı. Həm nüfuzlu beynəlxalq qurumlar, həm də ictimai-siyasi təşkilatlar tərəfindən müsbət rəy qazanmış Konstitusiyamızın başlıca meyarı demokratiya və insan hüquqlarının qorunmasından ibarətdir. Konstitusiyanın üçdə bir hissəsinin insan hüquq və azadlıqları ilə bağlı olması ulu öndər Heydər Əliyevin demokratik dəyərlərə sadiqliyini bir daha təsdiqləyir. Konstitusiyanın 72-ci maddəsinə əsasən, "insan hüquq və azadlıqlarını heç kəs məhdudlaşdıra bilməz. Bu hüquqları qorumaq, onların keşiyində dayanmaq qanunvericilik, icra və məhkəmə orqanlarının birbaşa borcu və vəzifəsidir".

Dövlətimizin rəmzlərinə hörmət olunması, ehtiram göstərilməsi də Konstitusiyada öz əksini tapmışdır. Əsas Qanunumuzun 75-ci maddəsində bu sətirləri oxuyuruq: "Hər bir kəs Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir". Yaşadığımız cəmiyyətdə bu gün hər kəs Konstitusiyanın bu maddəsinə diqqətlə yanaşır, müstəqil dövlətimizin rəmzlərinə hər addımda hörmət və ehtiramını bildirir. Keçirilən bütün rəsmi tədbirlərdə himnimiz səslənir, üçrəngli bayrağımız əzəmətlə dalğalanır, gerbimiz yuxarı başda vurulur. Bütün bunlar xalqın dövlət rəmzlərinə hörmətinin, ehtiramının bariz nümunəsidir.

Bu gün ölkəmizin hər bir vətəndaşı, kimliyindən asılı olmayaraq, müəllim də, zabit də, mühəndis də, əsgər də, hüquqşünas da Konstitusiyamızı dərindən öyrənməli və qanunlar qarşısında məsuliyyətini dərindən başa düşməlidir.

**Fariz MƏMMƏDOV,**
**Füzuli hərbi prokurorluğu**

## Danimarkalı deputatlar Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatlandırılıblar

Danimarka parlamenti deputatlarının bu ölkədə fəaliyyət göstərən siyasi partiyaların, diaspor təşkilatlarının və KİV-lərin nümayəndələri ilə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərdən də bəhs olunub. Deputatlar Naddem Farooq, Pernilla Skipper və İda Auken görüş iştirakçılarına Danimarkanın qanunverici orqanının fəaliyyətindən söhbət açıblar. Onlar Danimarkada fəaliyyət göstərən siyasi partiyalar və bu ölkənin mənafelərinə toxunan qlobal proseslər barədə də məlumat veriblər. Görüşdə "Vətən" Cəmiyyətinin sədri Səfər Sadiqi də iştirak edib. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemindən, Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalının hələ də davam etməsindən, bu durumun beynəlxalq hüququ kobud şəkildə pozmasından danışıb. Cəmiyyətin rəhbəri BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etməsi barədə məlumat verərək deyib ki, rəsmi Yerevan həmin qətnamələrə məhəl qoymur. Bu səbəbdən Dağlıq Qarabağın və ətraf rayonların Ermənistan tərəfindən işğalı nəticəsində doğma yurd-yuvalarından didərgin salınan azərbaycanlıların hüquqları pozulur.

**AzərTAc**

## Haqq qalib gələcəkdir

### Naxçıvanın etibarlı müdafiəsi təmin olunub

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 18 dekabr 2013-cü il tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin daha da artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradılıb.***

Dövlət müstəqilliyi hər bir xalqın varlığını təcəssüm etdirən əsas amillərdəndir. Milli dövlətçilik ənənələrinə sahib olan xalq heç vaxt əsarətə baş əyməz. Elə XX əsrdə iki dəfə müstəqillik əldə etməyimiz də buna ən parlaq nümunədir.

İlk dəfə 1990-cı il noyabrın 17-də Naxçıvanda ulu öndər Heydər Əliyev tərəfindən qaldırılan üçrəngli, ay-ulduzlu bayrağımız bu gün Azərbaycan səmasında əbədi olaraq qürurla dalğalanır. Həmin dövrdə ulu öndər Heydər Əliyev xalqımızın azadlıq mübarizəsini daha da alovlandırdı və 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası öz müstəqilliyini elan etdi. Bu yolda xalqımızın mərd oğul və qızları öz canlarından keçərək tarix yazdılar. Müstəqilliyimiz düşmənlərimizə göz dağı olduğu üçün ermənilər öz havadarlarının köməyi ilə torpaqlarımızı işğal etməyə və xalqımıza qarşı yenidən soyqırımı törətməyə başladılar.

Naxçıvan Muxtar Respublikasını yaranmış vəziyyətdən xilas etmək məqsədi ilə 7 sentyabr 1991-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında Naxçıvan Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı və Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında tarixi qərar qəbul edildi. O dövrdə ulu öndərin muxtar respublikamızda ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla yanaşı, bütövlükdə, müstəqil Azərbaycanda ordu quruculuğu prosesinin başlanğıcı oldu. Ulu öndər Heydər Əliyevin rəhbərliyi, uzaqgörən siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikasının Ermənistan Respublikası ilə həmsərhəd ərazilərində müdafiə imkanları genişləndirildi. 15 sentyabr 1992-ci ildə Naxçıvanda 5-ci əlahiddə gücləndirilmiş motoatıcı briqadası yaradıldı. Həmin briqada sonra daha da genişləndirildi və 2013-cü ildə Əlahiddə Ümumqoşun Ordusuna çevrildi.

Muxtar respublikamızda əhalinin ümummilli liderimiz Heydər Əliyevin ətrafında sıx birləşməsi və dahi liderin uzaqgörən siyasəti nəticəsində bu diyar düşmən hücumlarından cəsarətlə qorundu. Amma ölkəmizin digər ərazilərində vəziyyət tamamilə fərqli idi. Çünki Azərbaycanın öz müstəqilliyini əldə etdiyi ilk günlərdə "Milli özünümüdafiə qüvvələrini yaratmaq" haqqında qərar qəbul edilsə də, daxildə hakimiyyət uğrunda mübarizə aparan antimilli qüvvələrin fəaliyyəti nəticəsində yaranan qarışıqlıqdan istifadə edən işğalçı Ermənistan ərazilərimizin 20 faizini işğal etdi və nəticədə bir milyondan artıq soydaşımız öz dədə-baba yurdlarından didərgin düşdü.

Tökülən qanlar bahasına qazanılan dövlət müstəqilliyinin qorunub saxlanmasının çətinləşdiyi və torpaqlarımızın işğala məruz qaldığı bir dövrdə xalqın ümidi ulu öndər Heydər Əliyevi ikinci dəfə siyasi hakimiyyətə gətirmək idi. Çünki ölkədəki xaos və anarxiyaya son qoyacaq, dövlət müstəqilliyimizi qoruyub saxlayacaq yeganə insan ulu öndər Heydər Əliyev idi. Mənsub olduğu xalqın çağırışını cavabsız qoymayan lider ikinci dəfə siyasi hakimiyyətə qayıtdı.

(Ardı 2-ci səhifədə)

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikasının Müdafiə naziri Moskva şəhərində səfərdədir



***Noyabrın 10-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyinin Müdafiə Nazirləri Şurasının noyabrın 11-də keçiriləcək növbəti iclasında iştirak etmək üçün Moskva şəhərinə yola düşüb.***

Noyabrın 11-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyinin Müdafiə Nazirləri Şurasının Moskva şəhərində keçirilən növbəti iclasında iştirak edib.

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənov bir sıra ölkələrin Müdafiə nazirləri ilə ikitərəfli görüşlər keçirərək regional məsələləri müzakirə edib, hərbi sahədə əməkdaşlıq planları imzalayıb, hərbi-təhsil, təlim və Silahlı Qüvvələrin inkişaf istiqaməti barədə fikir mübadiləsi aparıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***10 noyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 51 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Çiləbürt, Qızıl Oba, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Füzuli rayonunun Horadiz, Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Əbdülrəhmanlı, Aşağı Seyidəhmədli, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Türkiyə Silahlı Qüvvələrinin nümayəndə heyəti cəbhə bölgəsində

***Ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının Xüsusi Təyinatlı Qüvvələrinin komandanı, diviziya generalı Zekai Aksakallının rəhbərlik etdiyi nümayəndə heyəti cəbhə bölgəsində yerləşən hərbi birlikdə olub.***



Türkiyəli qonağı qarşılayan hərbi hissə komandiri hərbi hissənin döyüş hazırlığı, təminatı, şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti, sosial-məişət şəraiti haqqında danışaraq son dövrlərdə görülən işlər barədə məlumat verib.

Sonra qonaqlar müdafiənin ön xəttində, düşmənlə birbaşa təmas xəttində yerləşən bölmələrdə olublar.

Diviziya generalı Z.Aksakallı doyüş mövqeyində dayanan hərbi qulluqçularla görüşüb, hərbi xidmətin təşkili, döyüş növbətçiliyinin aparılması ilə maraqlanıb, şəxsi heyət üçün yaradılmış şəraitlə, əsgərlərin yataq və istirahət yerləri ilə tanış olub.



O, Ermənistan tərəfindən işğal olunmuş əraziləri döyüş mövqeyindən müşahidə edib və ərazidəki komandirlər onu maraqlandıran sualları cavablandırıblar.

Döyüş postunda xidmət aparan əsgərlərlə görüşdə türkiyəli general Azərbaycan xalqının və eləcə də türk millətinin bu səngərlərdə inamla, ayıq-sayıq xidmət edərək döyüş tapşırığını yerinə yetirən Vətən övladları ilə fəxr etdiyini və qürür duyduğunu bildirib. Torpaqların müdafiəsində və işğaldan azad edilməsində onlara uğurlar arzulayan diviziya generalı Z.Aksakallı deyib: "Mən Azərbaycan əsgərini, onun hərbi texnika, silah-sursatla təminatını yüksək səviyyədə gördüm. Bu, məni çox sevindirir. Türkiyə daima Azərbaycanın yanındadır. Azərbaycan və Türkiyə əsgəri yenilməzdir. O, bunu dəfələrlə savaşlarda sübut edib. Ümid edir və inanıram ki, gələcəkdə də belə olacaqdır".



Sonra türkiyəli hərbçilər ön xətdəki hərbi hissənin təlim poliqonunda olaraq müxtəlif təlim nöqtələrində snayper, minaatanlar və PDM-in hazırlıq prosesini izləyib, döyüş atışlarını müşahidə ediblər. Diviziya generalı Z.Aksakallı snayper kursları keçən hərbçilərlə görüşərək "İstiqlal" snayper tüfənginin texniki göstəriciləri və döyüş imkanları ilə maraqlanıb.

Qonaqlar həmçinin tank təlim taborunda olaraq müxtəlif zirehli texnikalara baxış keçiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Vüsal HƏMİDOVUNDUR**

# Strateji planlaşdırmanın təşkililə bağlı seminar

***Noyabrın 11-də Silahlı Qüvvələrimizin Hərbi Akademiyasında "Müdafiənin planlaşdırılması prosesində strateji konsepsiyanın hazırlanmasının rolu" mövzusunda seminar başlanıb. Tədbir HATO-nun "Müdafiə təhsilinin genişləndirilməsi" proqramı çərçivəsində keçirilir.***

Hərbi Akademiyanın kurs rəisi polkovnik Raizi İsmayılov seminarla bağlı bildirib ki, dörd gün müddətində davam edən tədbirin keçirilməsində əsas məqsəd strateji planlaşdırmanın təşkililə bağlı beynəlxalq təcrübənin öyrənilməsidir. İlk növbədə NATO ölkələrinin bu sahədə təcrübəsi bizim üçün böyük önəm daşıyır. Seminarda Amerika Birləşmiş Ştatları Nouford Hərbi Dənizçilik Akademiyasından gəlmiş mütəxəssislər iştirak edirlər.

Amerikalı mütəxəssislər Silahlı Qüvvələrimizin Hərbi Akademiyasının komandanlığı ilə görüş keçirib, sonra kafedraların rəhbər və müəllim heyətilə dəyirmi masada strateji planlaşdırmanın təşkililə bağlı fikir mübadiləsi aparılıb. Eyni zamanda ikinci kursun dinləyiciləri qarşısında milli təhlükəsizlik strategiyası, qloballaşma və təhlükəsizlik məsələləri ilə bağlı mühazirələrin oxunması planlaşdırılıb.

**"Azərbaycan Ordusu"**

# Təlim və Tədris Mərkəzində zabitlərimiz üçün kurs keçirilir



Təlim və Tədris Mərkəzində ordumuzun zabitləri üçün kurs başlanıb.

NATO-nun əməliyyat planlaşdırma prosesi mövzusunda keçirilən tədbirdə Alyansın Brunssumdakı Birləşmiş Qüvvələr Komandanlığının mobil təlim qrupu iştirak edir.

Brunssumdan gəlmiş mütəxəssislər tərəfindən əməliyyat planlaşdırma prosesi barədə dinləyicilərin məlumatlandırılması, strateji mühitin qiymətləndirilməsi, əməliyyat planının və müvafiq sənədlərin hazırlanması ilə bağlı bilgilərin verilməsi nəzərdə tutulur.

NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində Azərbaycan Respublikası Silahlı Qüvvələri ilə Şimali Atlantika Alyansı arasında əlaqələr uğurla davam etdirilir. 2014-cü il üçün Fərdi Tərəfdaşlığın Əməkdaşlıq Proqramı çərçivəsində noyabrın 11-də Silahlı Qüvvələrin



Dörd gün davam edəcək kursun yekununda müxtəlif qoşun növlərini təmsil edən dinləyicilərə sertifikatlar təqdim olunacaq.

**"Azərbaycan Ordusu"**

# Haqq qalib gələcəkdir

(Əvvəli 1-ci səhifədə)

Yalnız ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkə daxilində siyasi sabitliyin əsası qoyuldu, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı. Ordu quruculuğunda genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə başlanıldı. Ulu öndər Heydər Əliyev Silahlı Qüvvələrin təşkili və inkişafı üçün əlverişli zəmin yaratdı və tezliklə görülən işlər öz müsbət nəticəsini verdi. 1993-cü ilin dekabr ayında və 1994-cü ilin yanvar ayında qoşun hissələrinin cəbhədə əldə etdiyi uğurlar bir daha sübut etdi ki, ordu quruculuğu sahəsində dövlətin apardığı siyasət əsaslandırılmış və ardıcıl olarsa, Silahlı Qüvvələrin təşkili və gücləndirilməsində yüksək nailiyyətlər əldə etmək olar. Bunu 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında dövlət çevrilişi etmək cəhdlərinin qarşısının alınmasında ordunun mövqeyi və fəaliyyəti bir daha sübut etdi. Bununla da xalqımız gördü və inandı ki, artıq dövlətimizin mənafeyini və ərazi bütövlüyünü qorumağa qadir olan güclü ordumuz var.



Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin dinamik inkişafı Silahlı Qüvvələrin büdcəsinin artmasına və nəticə etibarilə, ordumuzun güclənməsinə şərait yaradıb.

Ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlər Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin qayğısı ilə hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır.

2014-cü il aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubiley tədbirində iştirak edən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev qədim diyarda Əlahiddə Ümumqoşun Ordusunun yaradılması barədə danışarkən demişdir: "Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan Ordusu bu gün güclü ordudur. Naxçıvan Ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".

Ordu quruculuğunun müasir dövrün tələbləri səviyyəsində aparılması üçün Vətənə sədaqətli, peşəkar milli hərbçi kadrların hazırlanması mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasında hərbçi kadrların hazırlanması da diqqət mərkəzində saxlanılır. Hazırda Heydər Əliyev adına Hərbi Liseyin məzunları Azərbaycan Ordusunda öz xidməti vəzifələrini şərəflə yerinə yetirir, Naxçıvan torpağının yetirmələri olan generalların layiqli davamçıları kimi yetişirlər.

Bu gün Əlahiddə Ümumqoşun Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, xidmətin nümunəvi təşkili, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür.

Əlahiddə Ümumqoşun Ordusunun komandir heyətinə təyinatlar və hərbi hissələrə döyüş bayraqlarının verilməsi münasibətilə mayın 19-da Naxçıvanda keçirilən tədbirdə qeyd edildiyi kimi, Muxtar Respublikadakı hərbi hissələrin də maddi-texniki təminatı davamlı olaraq möhkəmləndirilir, əsgəri məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır. Son 10 ildə 160-dan çox hərbi obyekt tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib.

Bu yaxınlarda Əlahiddə Ümumqoşun Ordusu üçün yeni Təlim və Tədris Mərkəzinin istifadəyə verilməsi görülən işlərin əyani isbatıdır. Şəxsi heyətin hərbi vətənpərvərlik tərbiyəsinin və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində bu cür mərkəzlərin mühüm rolu vardır. Üç mərtəbədən ibarət olan binada Heydər Əliyev muzeyi, döyüş şöhrəti otağı, kitabxana, iclas zalı, zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki, mühəndis, kəşfiyyat hazırlığı və digər sinif otaqları vardır. Otaqlarda nəzəri təlim üçün lazım olan bütün əyani vəsaitlər və məlumat stendləri qoyulub. Bütün bunlar da hərbi tədris proqramlarının keyfiyyətlə işlənib mənimsənilməsinə, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılmasına, əməli vərdişlərin möhkəmləndirilməsinə imkan verir.



Ordu quruculuğu istiqamətində aparılan islahatlar nəticəsində Əlahiddə Ümumqoşun Ordusunun dağ şəraitində və yüksəkliklərdə yerləşən hərbi hissə və bölmələrində də nümunəvi xidmət şəraiti yaradılıb. Oktyabrın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Soyuq bölgəsinə gələrək təmas xəttində xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanıb, xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırıb. Bu gün dövlətin və xalqın dəstəyini öz üzərində hiss edən şəxsi heyət xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlir. Əsgərlər arasında qarşılıqlı hörmət və dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi məqsədi ilə "Bir nəfər hamı, hamı bir nəfər üçün" şüarı şəxsi heyətin xidmətinin əsasını təşkil edir.



Göründüyü kimi, Naxçıvan Muxtar Respublikasının düşmənlə sərhəd xəttində etibarlı müdafiə sistemi yaradılıb. Bu yüksəkliklərdə peşəkar və yüksək döyüş hazırlığına malik əsgər və zabitlərimiz xidmət edir. Təmas boyunca etibarlı əməliyyat mövqeyinin təmin edilməsi, hərbi intizamın daim möhkəmləndirilməsi, şəxsi heyətin peşəkarlığının artırılması diqqət mərkəzində saxlanılır. Dayaq məntəqələri və postlar müasir döyüş texnikaları, artilleriya qurğuları və atıcı silahlarla təmin olunub. Döyüş növbətçiliyi aparan şəxsi heyətin istifadəsində olan cihazlar isə ən çətin hava şəraitində belə qarşı tərəfin mövqelərinin müşahidə edilməsinə imkan verir.

Bu gün Azərbaycan əsgəri adını qazanmış gənclərimizin müqəddəs vəzifəsi intizamlı, mətin və cəsur döyüşçü olmaq, Vətənə sədaqətlə xidmət etmək və işğal altında olan torpaqlarımızı yağı düşməndən azad etməkdir. Bu ali məqsədə nail olmaq üçün hər bir əsgər də bu amalla yaşayır, öz üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirir, silah və texnikanın sirlərinə dərindən yiyələnir, fiziki, psixoloji və ideoloji yönümdə hazırlığını artırır. Çünki düşmən üzərində qələbə yüksək təlimlər görmüş, intizamlı, mənəvi-psixoloji və fiziki cəhətdən sağlam olan əsgərlərlə qazanılır. Buna görə də Azərbaycan Silahlı Qüvvələrində xidmət edən hər bir hərbi qulluqçu qarşıya qoyulmuş bu vəzifələrin yerinə yetirilməsində nümunəvi və fəal olmağa çalışır. Elə ona görədir ki, bu gün Vətən sərhədlərinin mühafizəsində ayıq-sayıq dayanan Azərbaycan əsgərinin şücaəti düşmənlərimiz üçün göz dağı, xalqımız üçün iftixar və qürur mənbəyidir. Deməli, istər sülh, istər müharibə, hansı yolla olursa-olsun, qələbə bizimlədir. Çünki sonda həmişə haqq işi qalib gəlir.

**Polkovnik-leytenant Mirqiyas RÜSTƏMOV, Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-Psixoloji Təminat Şöbəsinin rəisi**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# "Ölkəmizin hər yerində üçrəngli bayrağımız qürurla dalğalanacaqdır"

## Müdafiə Nazirliyi ilə Qazax rayon İcra Hakimiyyəti birgə tədbir keçirib

***Ölkəmizin hər yerində olduğu kimi, Qazaxda da Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 9 Noyabr - Dövlət Bayrağı Gününə həsr olunmuş təntənəli mərasim keçirilib. Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə rayon rəhbərliyi və hərbçilər tərəfindən gül dəstələri qoyularaq, ulu öndərin xatirəsi yad edilib.***






Sonra mərasim Qazax rayon Olimpiya və İdman Kompleksində davam etdirilib. Geniş və əzəmətli idman zalı xalqımızın iftixarı, qürur mənbəyi sayılan üçrəngli bayraqlarla bəzədilmişdi.

Öncə xalq artisti Ağalar Bayramovun ifasında üçrəngli bayrağımıza həsr olunmuş şeir səsləndirilib. Müstəqilliyimizin rəmzi olan Dövlət himni "N" hərbi hissəsinin orkestrinin müşayiəti ilə əməkdar artist Azərin tərəfindən ifa olunub.

Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışı səsləndirilib: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımız, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət Bayrağı dalğalanır. Azərbaycan öz ərazilərini işğaldan azad etdikdən sonra bizim bayrağımız Dağlıq Qarabağda - Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun Azərbaycan Bayrağına!"

General-leytenant Rövşən Əkbərov Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Dövlət Bayrağı Günü münasibəti ilə şəxsi heyətə təbrik məktubunu oxuyub. Sonra ali rütbəli zabit bildirib ki, bu gün xalqımızın tarixində əlamətdar gündür.

Dövlət Bayrağı Günü münasibəti ilə əsgər və zabitləri təbrik edən general ölkəmizdə həyata keçirilən geniş quruculuq işlərini, orduya göstərilən diqqət və qayğını bir daha mərasim iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, şəxsi heyət Ali Baş Komandanın əmrini hər zaman yerinə yetirməyə qadirdir. "İnanırıq ki, tezliklə işğal altında olan torpaqlarımızı azad edəcəyik. Ölkəmizin hər yerində üçrəngli bayrağımız qürurla dalğalanacaqdır".

Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun təbrik məktubunu isə polkovnik Elşad Əbilov şəxsi heyətə çatdırıb.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov bayram münasibəti ilə mərasim iştirakçılarını, əsgər və zabitləri təbrik edərək bildirib ki, bu gün ölkəmizin bütün sahələrində olduğu kimi, Silahlı Qüvvələrimiz də qüdrətli inkişaf yolundadır. "Azərbaycan Ordusu Qafqaz regionunun ən güclü, qüdrətli ordusu sayılır. Orduya dövlət rəhbərliyi tərəfindən böyük diqqət və qayğı göstərilir. Ali Baş Komandanın cəbhə bölgələrinə səfərləri, əsgər və zabitlərlə keçirdiyi görüşlər orduda xidmət edən gənc nəslin döyüş ruhunun yüksəldilməsinə xidmət edir. Bu gün keçirilən bayram tədbiri də ordu ilə xalqın monolit birliyinin bariz nümunəsidir. İnanırıq ki, növbəti bayram günlərimizi ölkəmizin hər yerində keçirəcək, dalğalanan bayrağımızla qürur duyacaq, fəxr edəcəyik".

Qazax rayon Qarabağ müharibəsi veteranları adından ehtiyatda olan mayor, Azərbaycan Yazıçılar Birliyinin üzvü Mustafa Rasimoğlu çıxış edərək Vətənin çağırışına həmişə hazır olduqlarını bildirib və bayrağımıza həsr etdiyi şeirini oxuyub.

Əməkdar artist Azərinin, Gəncə Zabitlər Evinin solistləri Salman Bəhramovun və Məhəmməd Mustafazadənin oxuduqları mahnılar alqışlarla qarşılanıb.

Sonda general-leytenant Rövşən Əkbərov Müdafiə Nazirliyinin rəhbərliyi adından mərasim iştirakçılarına öz minnətdarlığını bildirib.






**Mübariz MUSAOĞLU,**
**fotolar müəllifindir**

# Milli Qəhrəmanın xatirəsi yad edilib



***Noyabrın 8-də Lənkəran şəhərində Azərbaycanın Milli Qəhrəmanı Əsgər Ələkbər oğlu Əliyevin anadan olmasının 40 illiyi qeyd edilib.***

Müdafiə Nazirliyi Lənkəran Qarnizon Zabitlər Evinin təşkilatçılığı ilə keçirilən anım mərasimi qəhrəmanın adını daşıyan parkda ucaldılmış büstün önünə gül dəstələrinin düzülməsi ilə başlanıb.

Mərasimdə hərbi hissənin şəxsi heyəti, müharibə və əmək veteranları, Qarabağ və Əfqanıstan müharibəsi veteranları, şəhər ictimaiyyəti və rayon icra hakimiyyətinin nümayəndələri, o cümlədən qəhrəmanın sinif yoldaşları və müəllimləri iştirak ediblər.

Çıxış edənlər Ə.Əliyevin keçdiyi şərəfli həyat yolundan danışaraq, bu yolun gələcək nəsillər üçün bir örnək olacağını qeyd ediblər.

Sonda Milli Qəhrəmanın atası Ələkbər Əliyev çıxış edərək oğlunun xatirəsinə göstərilən ehtirama görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürünü bildirib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Şəhidin medalı ailəsinə təqdim olunub

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, nazirliyin və hərbi hissənin bir grup zabit heyəti Gəncə şəhərində olub. Onlar bu ilin aprel ayında şəhid olmuş əsgər Kərimov Seyfəddin Nəvai oğlunun ailəsinə baş çəkiblər.***



Müdafiə Nazirliyinin rəhbərliyi adından Dövlət Bayrağı Günü münasibətilə şəhidin valideynlərini təbrik edən nazirliyin zabiti polkovnik Abdulla Qurbani deyib: "Bayram günündə bu ünvana üz tutmağımız heç də təsadüfi deyildir. Şəhidlərimiz bayrağımızın zərrələridirlər. "Bayraqları bayraq edən, üstündəki qandır. Torpaq, əgər uğrunda ölən varsa Vətəndir!". Bayraq yalnız Vətən və torpaq uğrunda şəhid olanların önündə əyilər və şəhid cənazəsi üzərinə sərilər".



Sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin adından Müdafiə nazirinin əmri ilə ölümündən sonra təltif edildiyi "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı şəhid Seyfəddin Kərimovun ailəsinə təqdim olunub.

Hərbi birliyin komandanlığı adından çıxış edən polkovnik Elçin Kərimov torpaqlarımızın müdafiəsi zamanı şəhid olanlarla qürur duyduğunu və tezliklə şəhidlərimizin intiqamının alınacağını qeyd edib.

Şəhidin atası Nəvai Kərimov çıxış edərək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Sonra mərasim iştirakçıları Gəncə şəhərindəki Şəhidlər xiyabanına gedərək Vətən uğrunda şəhid olanların xatirəsini hörmət və ehtiramla yad ediblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Əlahiddə Ümumqoşun Ordusunda Dövlət Bayrağı Günü qeyd olunub



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, 9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə Müdafiə Nazirliyinə tabe olan hərbi hissələrdə silsilə tədbirlər keçirilib.

Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordusunun Təlim və Tədris Mərkəzində də Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirilib.

Dövlət himni səsləndirildikdən sonra Əlahiddə Ümumqoşun Ordusunun zabiti Mirqiyas Rüstəmov bildirib ki, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzi kimi qəbul edilən bayraq ilk dəfə 1990-cı il noyabr ayında Naxçıvanda ulu öndər Heydər Əliyev tərəfindən qaldırıldı.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli və bu İnstitutun dosenti, şair, yazıçı-dramaturq Həsənəli Eyvazlı öz çıxışlarında qeyd ediblər ki, qədim zamanlardan bu günümüzədək müqəddəs ana torpağımız uğrunda Vətənimizin mərd, igid, cəngavər övladları yaddelli düşmənlərə qarşı barışmaz mübarizə aparıblar. Bu igidlər döyüşlərə atılan zaman onların başları üzərində hər zaman Vətən bayrağı olub. Məhz bunun nəticəsidir ki, min illərdir bayraq xalqımız üçün milli şərəf və qürur rəmzinə çevrilib.

Sonra hərbi hissənin zabiti Vasif Aslanov çıxış edərək vurğulayıb ki, bayraq Vətənə sədaqətin rəmzidir. Silahlı Qüvvələrə həqiqi hərbi xidmətə çağırılan hər bir vətəndaş hərbi and içərkən başının üzərində üçrəngli, ay-ulduzlu bayraq olur.

Sonda hərbi vətənpərvərlik mövzusunda film nümayiş etdirilib.

# Hərbi Dəniz Qüvvələrinin zabit heyəti Dövlət Bayrağı Meydanında



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə tərtib olunmuş qrafiklə bayram günlərində Bakı qarnizonunda və bölgələrdə yerləşən hərbi hissələrin şəxsi heyətinin Bayraq Meydanına gəzintisi və Dövlət Bayrağı Muzeyinə ekskursiyası təşkil edilib. Tədbirlərdə Dövlət Bayrağının tarixi və muzeydə nümayiş etdirilən eksponatlar haqqında hərbi qulluqçulara ətraflı məlumat verilib. Hərbi Dəniz Qüvvələrinin zabit heyətinin də bayram günü ərəfəsində Dövlət Bayrağı Meydanına və Dövlət Bayrağı Muzeyinə ekskursiyası təşkil edilib.

Hərbi Hava və Hərbi Dəniz Qüvvələrində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi hissə və birləşmələrdə, qarnizon (Bakı, Gəncə, Lənkəran və Naxçıvan) zabitlər evlərində də 9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə şəxsi heyətlə tədbirlər keçirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# "Liseyə şöhrətdir Döyüs Bayrağı!"

***1918-ci ildə üçrəngli bayrağımız müsəlman Şərqində yaranan ilk demokratik, müstəqil Azərbaycan dövlətinin rəmzinə çevrildi. Keşməkeşli tariximizi yaşatdı, əbədiləşdirdi özündə, milli kimliyimizi qorudu üçrəngli bayrağımız! "Bir kərə yüksələn bayraq, bir daha enməz!" dedilər cümhuriyyət öncülləri.***



70 il sonra 1990-cı ildə sovet imperiyasının müstəmləkə siyasətindən azad olmağa can atan Vətənimizdə ilk olaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi altında üçrəngli bayrağımız Naxçıvanda dalğalandı. Bununla da müstəqilliyimizin əbədiyyət rəmzi olan üçrəngli bayrağımız bütün dünyada müstəqil Azərbaycan dövlətinin varlığını qürurla təsdiqlədi.

Bu gün Azərbaycan əsgəri Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı müqəddəs missiyanı öz üzərinə götürərkən üçrəngli bayrağa and içir.

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də 9 Noyabr - Bayraq Gününə həsr olunmuş bayram tədbiri keçirildi. Tədbirdə liseyin rəisi general-mayor Mirzə Almasov, zabit, müəllim, kursant heyəti və Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndələri iştirak etdilər. Əvvəlcə tədbir iştirakçıları Hərbi Lisey kursantlarının əl işlərindən ibarət rəsm sərgisiylə tanış oldular. Sonra Bayraq Günü mərasimi açıq elan edildi. Tədbir ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi uğrunda şəhid olanların əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin oxunması ilə davam etdirildi.

Polkovnik Rauf Dəmirov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun liseyin zabit, müəllim və kursant heyətinə ünvanladığı təbrik məktubunu tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Daha sonra aparıcı kursant fəxrlə danışdı: "96 il öncə, 1918-ci ildə xalqımız müstəmləkəçiliyə, köləliyə, "yox" deyərək minillik dövlətçiliyimizin ənənələrini bərpa etdi. Milli üçrəngli bayrağımızı başı üzərində dalğalandırdı".

2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimindən hazırlanmış video-çarxın görüntüləri tədbirdə maraqla izlənildi. Prezident cənab İlham Əliyevin bayrağımızla bağlı fikirləri olduqca qürurverici səsləndi: "... Bizim bayrağımız Dağlıq Qarabağda - Xankəndidə, Şuşada dalğalanacaqdır ..." .

Liseyin kursantları Rəvan Şərifov, Səttar Piriyev, Əlibəy Əzizli, Şahlar İslamov, Orxan Abışov və başqalarının bayraq haqqında çıxışları, şeir söyləmələri tədbirin mövzu rəngarəngliyindən, özəlliyindən xəbər verirdi.

Kursantların ifasında səslənən şeir-kompozisiya isə tədbir iştirakçılarında xoş anlar yaşatdı. Nəhayət, aparıcı kursantlar tədbir iştirakçılarının diqqətini liseyə təqdim olunan bayraqların tarixinə yönəltdi: "1981-ci ildə ümummilli lider Heydər Əliyev özünün yaratdığı C.Naxçıvanski adına Hərbi Liseyin 10 illik yubileyi münasibəti ilə yığıncaqda məktəbi Hərbi Bayraq ilə mükafatlandırıb. Ulu öndərimiz Heydər Əliyev həyatının ən xoşbəxt anlarını bir daha liseyin 30 yaşı tamam olanda yaşadı. O, yaratdığı təhsil ocağı ilə daim fəxr edirdi".

Tədbirin sonunda Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndəsi Xoşqədəm Bağırova söz alaraq təmsil etdiyi qurumun adından liseyin zabit, müəllim və kursant heyətini Bayraq Günü münasibəti ilə təbrik etdi və yeni tədris ilində onlara uğurlar arzuladı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Noyabrın 10-dan 14-dək Oberammerqau şəhərində (Almaniya) silahlara nəzarət - Vyana sənədinə uyğunluq və verifikasiya üzrə kurs; Vışkov şəhərində (Çexiya) "kimyəvi, bioloji, reaktiv, nüvə hadisələri nəticəsində əmələ gəlmiş böhranların idarə edilməsi" kursu; Kungsangen şəhərində (İsveç) təcrübələrin öyrənilməsi üzrə NATO qərargah zabitləri üçün kurs; noyabrın 10-dan 21-dək isə Ankara şəhərində (Türkiyə) "Silahlı Münaqişə Hüququ" kursu; noyabrın 11-dən 14-dək Bakı şəhərində "Müdafiənin planlaşdırılması prosesində strateji konsepsiyanın hazırlanmasının rolu" mövzusunda seminar; noyabrın 12-dən 13-dək Vilnüs şəhərində (Litva) "Hərbi sahədə tətbiq edilən innovativ enerji vasitələri" mövzusunda konfrans və sərgi keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# "Qəhrəmanlıq ənənələrini yaşadaq"

## Müdafiə Nazirliyi ilə Biləsuvar rayon İcra Hakimiyyəti birgə tədbir keçirib

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi müvafiq plana əsasən, keçirilən vətənpərvərlik tədbirləri Silahlı Qüvvələrimizin mənəvi-psixoloji hazırlığının daha da artırılmasını, döyüş ruhunun yüksəldilməsini stimullaşdırmaqla bərabər, gənc nəslin vətənpərvərlik tərbiyəsində də mühüm əhəmiyyətə malikdir.***

(reportaj)




Biləsuvar Olimpiya Kompleksində Müdafiə Nazirliyinin və Biləsuvar rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Dövlət Bayrağı gününə həsr olunmuş "Qəhrəmanlıq ənənələrini yaşadaq" devizi altında hərbi vətənpərvərlik günü keçirilib. Bu tədbirin Biləsuvarda keçirilməsi təsadüfi deyil.

Tədbirin məzmunu, müəyyən mənada remarkası

### "İgid ölər, adı qalar"

atalar sözünü yada salır.

Bu gün Biləsuvarda vətənpərvərlik günüdür. Bu günün işığı tariximizin dünənindən



barındığı üçün zaman-zaman sönməyəcək...

Biləsuvarda ruhları titrədən bir tədbirin işığındayıq: "Qəhrəmanlıq ənənələrini yaşadaq". Bu ənənələr olub, var, olacaq da. Ordu ilə xalqın tədbiridi. Vətənpərvərlik günü formatında. Tədbirin bu gün keçirilməsi təsadüfi deyil. Duyursan ki, tədbirin ssenari müəllifi, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin söz yozumunda Vətən naminə döyüşən, Vətən naminə şəhid olan oğulların hər biri qəhrəman kimi təqdim olunacaq. Vətən sevgisi duyumluların yaşantılarını titrədən Milli Qəhrəman Mübariz İbrahimovun əbədiyyətə təhvil verildiyi gündü. Təmas xəttində ermənilərin çox, xeyli çox canlı qüvvəsini məhv edən qəhrəmanın təni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyəti ilə alınmış, noyabrın 7-də böyük izdihamla dəfn edilmişdi...

Mübariz İbrahimovun timsalında 120-dən çox oğulun adına ad olan tədbir Müdafiə Nazirliyinin istəyidi, yəni, Vətənin istəyidi...

Şəhid analarının harda olmasıyla maraqlanıram. Üzümə üz bağlayıb beş-on kəlmə soruşmaq niyyətindəyəm. Öyrənirəm ki, şəhid anaları-ataları, şəhidlərin ailə üzvləri tədbirə ümummilli liderimiz Heydər Əliyevin və Milli Qəhrəman Mübariz İbrahimovun abidələri önünə tər çiçəklər qoyduqdan, Şəhidlər xiyabanında şəhidlərin məzarlarını ziyarət etdikdən sonra gələcəklər. Bu, tədbirin qayəsinin ilkini, başlanğıcıdı. Şəhid analarının, atalarının, onların Şəhidlər xiyabanına rəsmi ziyarətini gerçəkləşdirənlərin ölümsüz oğullara hesabatı kimi: Siz qəhrəman oldunuz. Sizin ziyarətinizə "Qəhrəmanlıq ənənələrini yaşadaq" deyən oğulların adından gəlmişik...

Azərbaycan Respublikasının Dövlət himni səslənir...



...Arenanın mərkəzində düzəldilmiş səhnədə əsgərlər düzülüb. Şəhid ruhlarının keşiyindədirlər sanki. Hər birinin baxışlarından bir mətləbi oxumaq çətin deyil: Sizin yolunuzu biz davam etdirəcəyik, sizin qəhrəmanlığınız bizə Vətəni necə sevməyi öyrədir.

İstənilən tədbir şeiriyyət biçimində daha duyğusal olur. Abdulla Qurbani şair olaraq mətləbini misralar, bəndlər, bütövlükdə şeir şəklində təqdim edir. Tədbir boyu məlum olacaq ki, ifa edilən mahnıların çoxunun mətn müəllifi də özüdü...

Olimpiya Kompleksinin fasadından baxan şəkil-oğulun baxışları sanki

### "Dünən bu gün üçün tarixdi"

deyir. Mübariz Ağakərim oğlu 22 yaşındaydı. Tərtərdə xidmət edirdi. Gizir hərbi rütbəsində. Xocalı faciəsini unuda bilmirdi. Bəlkə də hər gecə şəhidlərimizin ruhuyla pıçıldaşırmış. Səngərin gecəsi-gündüzü olmasa da, aylı gecələrin birində çəkinmədən ölümün üstünə yeridi. Öldürməyə. Qisas almağa. O gecə yeni bir qəhrəmanlıq doğulacaqdı. Mübarizin qəhrəmanlığını bizlərdən kimsə görə bilməsdi. Düşmənin üzərinə tək getmişdi. O gecə nələr olduğunu göylər gördü. Nələr olduğunu düşmənin günlərlə, həftələrlə, aylarla yaşadığı vahimə daha dürüst bilir. O qəhrəmanlıq öz təsdiqini dövlət başçısının sərəncamında tapacaqdı...

Mübariz sonda özünün də gülləyə tuş gələcəyini bilsə də, düşmənin üstünə getmişdi. Min-min illərlə davam etmiş qəhrəmanlıq ənənəsini kişi kimi davam etdirmişdi...



***Tonqallar yanmırdı***
***dağlar başında,***
***Dərdi qanayırdı***
***dağın-daşın da...***
***Qeyrət min yaşında,***
***ruh min yaşında,***
***Ömürə düzülən yaş -***
***iyirmi iki.***

***Tarixin can üzən***
***görkü varıydı,***
***Sınağın çətini,***
***bərki varıydı...***
***Torpağın əsgərə***
***ərki varıydı,***
***Ömürdən üzülən***
***yaş - iyirmi iki.***

***Yaşamaq istədi***
***Cavad ömrünü,***
***Vətənə ad olan***
***inad ömrünü...***
***Cihada köklədi***
***cihad ömrünü,***
***Ölümün çözdüyü***
***yaş - iyirmi iki...***

Mübarizin o gecədən əvvəl ata-anasına yazdığı məktubu xatırlayıram:

### Atama və anama məktub

*Canım atam və anam, məndən sarı darıxmayın. İnşallah cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. İnşallah, şəhid olana kimi bu şərəfsizlərin üstünə gedəcəm. Şəhid olsam ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin, çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdü. Vətən sağ olsun. Haqqınızı halal edin...*

Qəhrəmanların ölüm tarixi olmur əslində; doğum günü və əbədiyyət. Beş il əvvəlin bir gecəsində qaranlıqları yaran şimşək misallı qəhrəmanlıq doğuldu. Düşmənin belini qıran, dostu bir boy da dikəldən qəhrəmanlıq. Mübariz həmişə 22 yaşında olacaq, həmişə 22 yaşlı Mübariz kimi xatırlanacaq. Nə qədər Azərbaycan var, xatırlanacaq. Biz dünyada olmayanda da xatırlanacaq...



Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun iri portreti arenaya gətirilir. Baxışlarında başaçılmaz bir narahatlıq duyulur; işğalda qalan torpaqlarımızın əndişəsidi. Vətən adına xidmət edirdi, Vətən naminə şəhid oldu. Əsrimizin qəhrəmanlıq simvolu kimi qəbul ediləsi bir qəhrəman ömrü yaşadı Mübariz...

### "Ana, mən şəhid oldum, Vətən sağ olsun"

mahnısının sədaları toplaşanların "ürəyini suya çəkir"...

Səngər əsgərin əllərinin təmasını duyunca dağa-daşa dönür, qarşı yaxadan dikələnlərin gözünün "odunu alır". Vahiməsiylə, duruşuyla. Özgə torpağına meyillənənlər səngərlərdə səngərə dönən oğulların Mübarizləşdiyini yaxşı bilir. Belə oğullardan bir qrupu - xüsusi təyinatlılar arenaya daxil olur. Çevik, nizami addımlarla, avtomatlarla. Barmaqları avtomatın qundağını elə sıxır ki, düşünürsən: hər biri elə burdan düşmən üstünə getməyə hazırdı. Xüsusi təyinatlıların gəlişi-yerişi, qüruru, vüqarı arenanı ürək-ürək dalğalandırır. Bayraqlarımız nəhayətsiz inamla, dünyəvi sevgilərlə dalğalanır.

Mənə belə gəlir ki, Mübarizin baxışları pıçıldayır: "Ağlama, ana! Mənsizliyə alışın. Vətən var, Vətəni sevən oğullar var. Vətənə dəyən daş bizim ömrümüzə dəymirdimi? Düşmənlər Xocalını tar-mar edəndə məni bağrına basıb için-için ağlayırdın. O göz yaşlarının qisasıydı, aldım. Ölümümün üstünə getdim. Qisas alan oğul Vətən naminə canından da keçər. Vətən sağ olsun!..."...

Şeirləri könülləri tellləndirən, neçə-neçə lirik mahnının mətn müəllifi olan istedadlı şair Sona Vəliyevanın sözlərinə yazılmış

### "Ağlama, şəhid balası"

mahnısı minlərin istəyinin ifadəçisidi. Kövrələn şəhid anaları arenaya daxil olur...

Oğul itirən ananın dərdi ovunmaz. Bu dərd ümumxalq ehtiramıyla əhatələnəndə sızıltısı künələşir, göynərtisi azalır. Biləsuvarda şəhid anaları belə bir ehtiramla əhatələnib. Bayaq minlər onların gəlişinə ayağa qalxmışdı, indi sızıltısı künələşən, göynərtisi azalan analar ayağa qalxır. Nə olmuşdu? - analar şəhidlərin başdaşlarından boylanan baxışlarını sezir, gənclərin "çiyinlərində" maneјə daxil olan şəkil-şəhidləri görür. Nəfəsini "içinə çəkən"lər anaları alqışlayır. Bu biçim səmimi alqışın qaynarlığında xoreoqrafik kompozisiya istedadlı xanəndə Bəyimxanım Vəliyevanın ifasıyla çulğaşır. İfa kövrəkdi, duyğusaldı, ana laylası biçimində ifadı. Musiqi də, xoreoqrafik təqdimat da bu gəlişin yozumunu aça bilir. Ölməzlərə ehtiram günündə şəkil-oğulların səssiz baxışlarını görənlərin ürəyindən keçənləri gümanlamaq çətin deyil: arzuladığınız gün üçün biz də sizin sıranıza qoşularıq. Təki torpaqlarımız işğaldan azad edilsin. O torpaqları sizin davamçılarınız olaraq biz azad edəcəyik! Sizin ruhlarınızın xeyir-duasıyla!..

Şəkil-oğullar gəldikləri kimi də gedirlər. Onlara ürəyinin gözü ilə baxanlar görür ki, hər şəkil sükut diliylə nəsə deyir. Göydə günə, yerdə torpağa inandığım kimi inanıram ki, "Sevin Vətəni. Bizim sevdiyimiz kimi sevin. Lazım gələrsə, siz də şəhidliyə qənşər gedin..." deyirlər...



Mərkəzi Zabitlər Evinin solisti gizir Ağabala Abdullayevlə sonuncu muğam müsabiqəsinin qalibi Sərxan Bünyadzadənin ifasında "Vətən, sənin şəhidlərin" mahnısı səslənir. Kövrək ovqat yaradır. Arenaya məşəllərlə addımlayanlar gəlir. Elçin Məmmədovun ifasında "Şəhidlər ölməz" mahnısı gerçəkliyə bürünmüş bir inama dönür.

### "Vətən, sənin əsgərinəm!"

Arenaya 5 yaşlı dörd uşaq daxil olur. Hərbi səhra paltarında. Xüsusi təyinatlıların qrimində. Ssenari müəllifinin bədii yozumunda şəhid balaları kimi. Arenaya əvvəl-əvvəl qəribə, düşündürücü bir sükut çökür, sonra səmimi bir alqış dalğası. Kiçik ölçülü bayraqlarımız kiçik yaşlı "xüsusi təyinatlıların" əllərində elə ecazkarlıqla dalğalanır ki! Az sonra o fidanlar əsgərlərin əllərində "bayrağa dönür". Əsgərlər xalqımızın sabahının cəfakeşi olacaq fidanları boyu bərabərinə qaldırıb göyə dikəldir. Hamı nəfəsini "içinə çəkib". Musiqidi, bayraqlarımızla yanaşı dalğalanan fidanlardı, bir də musiqiyə pərsəng olan səssizlikdi. Bəyimxanım elə kövrəkliklə, elə həzinliklə, elə yanğıyla oxuyur ki... Bənzərsiz yozum mənim də gözlərimdən yaş dərir. Həmkarım Ramazan Səməroğlu da, ətrafımızdakılar da mən gündədi. Respublikanın xalq artisti Zümrüd Məmmədovanın, Leyla Vahidqızının, Samirə Sadıqovanın ifaları tədbirin mahiyyətinin musiqi vasitəsilə dərkini təmin eləyir...

Biləsuvar rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev, Milli Məclisin deputatı professor Xanhüseyn Kazımlı, Respublika Müharibə Veteranları Təşkilatının sədr müavini Cəlil Xəlilov, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun atası Ağakərim İbrahimov çıxış edərək belə tədbirlərin mahiyyətindən, əhəmiyyətindən söz açır, respublikamızın Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərlərinə minnətdarlıqlarını bildirirlər...

Tədbir başa çatır...

Yox, başa çatmayıb. Bir ana ağır addımlarla Abdulla Qurbaniyə yaxınlaşır. Gözləri dolub-boşalır.

Qoşa qolları görüşünə can atdığı polkovnikin kürəyində çarpazlaşır. "Vüqarın anasıyam" deyir. "Balamın qoxusunu səndən almaq istədim". Vüqar Biləsuvarın Bəydili kəndindəniydi. İkinci Kəlbəcər əməliyyatında şəhid olmuşdu. 1994-cü ilin şaxtalı qışında. İyun ayında Abdulla Qurbani əraziyə bələd olanlarla, döyüşçülərlə birlikdə Vüqarın tənini gətirə bilib. Altı aydan sonra. Ana məhz buna görə onu bağrına basırmış...

Tədbirin cazibəsindəykən təəssüratlarım düşüncələrimdə misralanır:





***..Anım günü ildə bir yol olur ,***
***ancaq***
***Mübarizlər min illərlə***
***Hər gün, hər an anılacaq!...***

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Namiq PƏNAHOVUNDUR**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 366
Nüsxə 4570